İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ
VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI

"DOİNG BUSİNESS" islahatlarına dair
**XÜSUSİ BURAXILIŞ**

Doing Business

THE WORLD BANK

Mart - 2018



“Bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımızı gücləndirməliyik.
Növbəti illərdə bu istiqamətdə əlavə addımlar atılacaq.
Deyə bilərəm ki, son iki il ərzində çox ciddi iqtisadi islahatlar aparılmışdır.”

**İLHAM ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti

# 2018-Cİ İLDƏ AÇIQLANACAQ "DOİNG BUSİNESS-2019" HESABATINDA AZƏRBAYCAN RESPUBLİKASININ MÖVQEYİNİN GÜCLƏNDİRİLMƏSİNİ TƏMİN EDƏCƏK İSLAHAT İSTİQAMƏTLƏRİ


1 | BİZNESƏ BAŞLAMA — 4 səh.

2 | TİKİNTİ ÜÇÜN İCAZƏLƏRİN ALINMASI — 6 səh.

3 | ELEKTRİK TƏCHİZATI ŞƏBƏKƏLƏRİNƏ QOŞULMA — 8 səh.

4 | ƏMLAKIN QEYDİYYATI — 11 səh.

5 | KREDİTLƏRİN ALINMASI — 13 səh.

6 | KİÇİK İNVESTORLARIN MARAQLARININ QORUNMASI — 19 səh.

7 | VERGİLƏRİN ÖDƏNİLMƏSİ — 23 səh.

8 | XARİCİ TİCARƏTİN APARILMASI — 25 səh.

9 | MÜQAVİLƏLƏRİN İCRASININ TƏMİN EDİLMƏSİ — 29 səh.

10 | MÜƏSSİSƏNİN BAĞLANMASI — 33 səh.

## "DÜNYA BANK"I TƏRƏFİNDƏN HAZIRLANAN "DOİNG BUSİNESS 2018" HESABATINDA AZƏRBAYCAN 8 PİLLƏ İRƏLİLƏYƏRƏK 190 ÖLKƏ ARASINDA 65-Cİ PİLLƏDƏN 57-Cİ YERƏ YÜKSƏLİB.

| 2017 | | 2018 |
|---|---|---|
| 5 | BİZNESƏ BAŞLAMA | 18 |
| 127 | TİKİNTİ ÜÇÜN İCAZƏLƏRİN ALINMASI | 161 |
| 105 | ELEKTRİK TƏCHİZATI ŞƏBƏKƏLƏRİNƏ QOŞULMA | 102 |
| 22 | ƏMLAKIN QEYDİYYATI | 21 |
| 118 | KREDİTLƏRİN ALINMASI | 122 |
| 32 | KİÇİK İNVESTORLARIN MARAQLARININ QORUNMASI | 10 |
| 40 | VERGİLƏRİN ÖDƏNİLMƏSİ | 35 |
| 83 | XARİCİ TİCARƏTİN APARILMASI | 83 |
| 44 | MÜQAVİLƏLƏRİN İCRASININ TƏMİN EDİLMƏSİ | 38 |
| 86 | MÜƏSSİSƏNİN BAĞLANMASI | 47 |
| 65 (2017) | | 57 (2018) |

## BİZNESƏ BAŞLAMA

Mövcud reytinq: 190 ölkə arasında **18-ci yer**

Doing Business
THE WORLD BANK

# BİZNESƏ BAŞLAMA







DOING BUSINESS — İSLAHATIN NƏTİCƏSİ

- Hüquqi ünvanı təsdiq edən sənədin kağız daşıyıcıda qeydiyyat zamanı tələb edilməməsi;
- Hüquqi şəxsin elektron qeydiyyatı zamanı rəhbər təyin edilmiş şəxsin razılığının elektron imza ilə təsdiqi edilməsi;
- Hüquqi şəxsin elektron qeydiyyatı zamanı rəhbərin fərdi tipli e-imzasının tipinin avtomatik olaraq biznesə çevrilməsi;
- Əmək müqavilələrinin qeydiyyatı prosesi ilə hüquqi şəxsin elektron qeydiyyatı prosesinin birləşdirilməsi;
- Aparılacaq islahatların nəticəsində işçilərin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində qeydiyyatdan keçirilməsi proseduru ləğv ediləcək və biznesə başlanılması faktiki olaraq cəmi 2 günə enəcək.

## TİKİNTİ ÜÇÜN İCAZƏLƏRİN ALINMASI

Mövcud reytinq: 190 ölkə arasında **161-ci yer**

Doing Business

THE WORLD BANK

# TİKİNTİ OBYEKTİNİN TİKİNTİSİNƏ VƏ İSTİSMARINA İCAZƏLƏRİN VERİLMƏSİ

## I MƏRHƏLƏ - TİKİNTİ OBYEKTİNİN LAYİHƏLƏNDİRİLMƏSİ

Müvafiq icra hakimiyyəti orqanından ilkin məlumatlar əldə edilir. **10** gün

Lisenziyalı şirkətlər vasitəsi ilə mühəndis-axtarış işləri həyata keçirilir və FHN tərəfindən rəy verilir. **10** gün

Layihəçi və ya müvafiq lisenziyalı şirkət tərəfindən topoqrafik tədqiqatlar aparılır.

## II MƏRHƏLƏ - TİKİNTİYƏ İCAZƏNİN VERİLMƏSİ

**Müvafiq icra hakimiyyəti orqanına sənədlərin təqdim olunması və yoxlanılması**

Mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd;

Tikinti layihəsi;

Sifarişçi hüquqi şəxs olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti verilir.

**3** gün

**Müvafiq icra hakimiyyəti orqanı tərəfindən**

Aidiyyəti qurumlardan rəy alınır:

Ekspertiza tələb olunduqda - **15** gün

Ekspertiza tələb olunmadıqda - **5** gün

Ekspertiza tələb olunduqda FHN tərəfindən həyata keçirilir. **20** gün

Vahid Pəncərə prinsipi ilə "ASAN Xidmət"-dən texniki şərtlər əldə edilir. **10** gün.

**Tikinti zamanı yoxlamalar**

TEXNİKİ NƏZARƏT - sifarişçi tərəfindən;

MÜƏLLİF NƏZARƏTİ - tikinti layihəsini hazırlayan tərəfindən;

DAXİLİ NƏZARƏT – podratçı tərəfindən;

DÖVLƏT NƏZARƏTİ - FHN, Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən.

## III MƏRHƏLƏ - İSTİSMARA İCAZƏNİN VERİLMƏSİ

İstismara Hazırlıq Aktı, Sınaq Aktları, Tikinti Layihəsi müvafiq icra hakimiyyəti orqanına təqdim olunur. **20** gün

Tikili "Tikintilərin Dövlət Reyestri"nə daxil olunur və istifadə kodu verilir. **3** gün

Tikili "Daşınmaz Əmlakın Dövlət Reyestri"nə daxil olunur və çıxarış əldə olunur. **10** gün

**DOING BUSINESS — İSLAHATIN NƏTİCƏSİ**

- Tikinti obyektinin tikintisinə və istismarına icazələrin verilməsi cəmi 10 prosedurla həyata keçirilir;
- Tikinti obyektlərinin tikinti layihəsi ekspertiza tələb olunan və tələb olunmayan obyektlərə ayrılmışdır;
- Ekspertizası tələb olunmayan obyektlərin siyahısı genişləndirilmişdir;
- Tikinti layihəsi üzrə ekspertiza tələb olunmayan obyektlərin icazəsi 15 günə azaldılmışdır;
- Tikintiyə icazənin verilməsi müddəti 30 günə endirilmişdir;
- İstismara qəbul müddəti 30 gündən 20 günə azaldılmışdır;
- Texniki şərtlər (4 texniki şərt) "Bir Pəncərə" prinsipi ilə sadəcə 1 sorğu vasitəsi ilə "ASAN Xidmət" mərkəzlərindən əldə olunur.

**Hüquqi əsası**: Azərbaycan Respublikasının 2017-ci il 16 may tarixli 673-VQD və 678-VQD nömrəli qanunları ilə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə dəyişikliklər.

# ELEKTRİK TƏCHİZATI ŞƏBƏKƏLƏRİNƏ QOŞULMA

Mövcud reytinq: 190 ölkə arasında **102-ci yer**

Doing Business

THE WORLD BANK

# ELEKTRİK TƏCHİZATI ŞƏBƏKƏLƏRİNƏ QOŞULMA

**ƏVVƏL**

7

Elektrik enerjisinə qoşulmaq üçün

**7 PROSEDUR**
(69 gün)

**İNDİ**

Sahibkarın elektron müraciəti

3

asan xidmət

Cəmi **3 PROSEDURLA** elektrik enerjisinə qoşulma təmin edilir.

**24 GÜN**

**12 GÜN**

**12 GÜN**

**1**

Vahid Pəncərə prinsipi ilə "ASAN Kommunal/Xidmət"ə müraciət olunur, layihə-smeta sənədləri və texniki şərtlər hazırlanır və sahibkara təqdim olunur;

**2**

Layihə-smeta sənədlərinin dəyəri sahibkar tərəfindən ödənilir, tikinti-quraşdırma işləri aparılır və Enerji Təchizatı Şəbəkəsinə (ETŞ) fiziki qoşulma həyata keçirilir;

**3**

Tikinti obyektinə elektrik enerjisi verilir.

**Hüquqi əsası**: "Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanı

# ELEKTRİK TƏCHİZATI ŞƏBƏKƏLƏRİNƏ QOŞULMA




Sahibkarların tələb olunan gücü **150 kVt**-a qədər olan mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi alması üçün müraciəti əvvəl **69 gün** müddətinə həyata keçirilirdisə, hazırda **24 gündən** gec olmayaraq həyata keçirilir.

## 24 GÜN

### 1 GÜN

- "ASAN Kommunal/Xidmət"mərkəzlərinin nəzdində "Texniki Şura" tərəfindən obyektin yeri və güc mərkəzi müəyyən edilir;
- "Texniki Şura" tərəfindən sənədlər müvafiq icra hakimiyyəti orqanına verilir;
- Enerji verilməsi üçün optimal trassa təyin edilir;
- Trassa üzrə elektrik enerjisinin verilməsi üçün rəyi tələb olunan qurumlar müəyyən olunur.

### 3 GÜN

- Müvafiq qurumlarla seçilmiş trassa razılaşdırılır.

### 7 GÜN

- ETŞ tərəfindən texniki şərtlər və layihə-smeta sənədləri hazırlanır.

### 1 GÜN

- "Texniki Şura" tərəfindən layihə-smeta sənədlərinə texniki göstəricilər, iqtisadi qiymətləndirmə baxımından rəy verilir.

### 12 GÜN

- Sənədlər sahibkara təqdim edilir, müəyyənləşdirilmiş dəyər bildirilir və sahibkar tərəfindən ödənilir;
- Tikinti quraşdırma işləri həyata keçirilir;
- Sahibkarla Enerji Təchizatı Müəssisəsi (ETM) arasında müqavilə bağlanır və abonentin qeydiyyata alınması ilə fiziki qoşulma təmin olunur.

**İSLAHATIN NƏTİCƏSİ** (DOING BUSINESS)

- Prosedurların sayı 7-dən 3-ə qədər endirilib, günlərin sayı isə 69-dan 24-ə azaldılmışdır;
- Elektrik şəbəkəsinin dairəvi sxemə qoşulması ilə açılmalar "0"-a endirilmişdir;
- Elektrik enerjisinə qoşulma prosesi asanlaşdırılmış və qoşulma xərcləri azaldılmışdır;
- "Elektron Xəritə" vasitəsi ilə sahibkarın obyektinin, güc mərkəzlərinin yeri və həmin mərkəzlərdə sərbəst güc səviyyəsi əraziyə baxış olmadan müəyyən olunur.

**Hüquqi əsası**: Sahibkarların mövcud və ya inşa ediləcək tikinti obyektlərinin elektrik enerjisi ilə təchizatı prosedurunun sadələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 aprel tarixli 1313 nömrəli Fərmanı

## ƏMLAKIN QEYDİYYATI

Mövcud reytinq: 190 ölkə arasında **21-ci yer**

Doing Business

THE WORLD BANK

# ƏMLAKIN QEYDİYYATI

## ƏVVƏL

**1** Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən (DƏDRX) **"Yüklülük (Məhdudiyyət)" haqqında arayış əldə olunurdu.**

ARAYİŞİ

**2** "Yüklülük (Məhdudiyyət)" haqqında arayış notariusa təqdim olunur və **alqı-satqı aktı bağlanırdı.**

NOTARİUS

**3** Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən **kağız çıxarış** əldə olunurdu.

ÇIXARIŞ

## İNDİ

**1** Notaruisa müraciət olunur

NOTARİUS

DƏDRX

Notarius onlayn olaraq DƏDRX-dən **"Yüklülük (Məhdudiyyət)" haqqında arayışı əldə edir**.

**1 gün**

Notarius **alqı-satqı aktını DƏDRX-ə onlayn olaraq göndərir**.

Elektron Hökumət Portalı

DƏDRX alqı-satqı aktını «ELEKTRON HÖKUMƏT PORTALI»na yerləşdirir.

**3 gün**

Bununla da, əmlak üzərində **alıcının hüquqları dövlət qeydiyyatına alınır**.

DOING BUSINESS
İSLAHATIN NƏTİCƏSİ

- Daşınmaz əmlakın dövlət qeydiyyatı cəmi 1 prosedurla 4 gün ərzində həyata keçirilir;
- Notariusun vəzifə borcuna əsasən əmlakın dövlət qeydiyyatı üçün bütün lazımi proseslər notarius vasitəsi ilə həyata keçirilir;
- "Elektron Hökumət Portalı"ndan əldə oluna biləcək "Elektron Çıxarış" kağız çıxarışla eyni qüvvədədir;
- Daşınmaz əmlakın dövlət qeydiyyatının aparılması, plan ölçülərin verilməsi üzrə tam elektron sistem yaradılmışdır;
- Daşınmaz əmlakın qeydiyyatı, kadastr xidməti ilə bağlı problemlər üzrə müraciət və müvafiq olaraq onların həlli üçün xüsusi və müstəqil mexanizmlər fəaliyyət göstərir.

**Hüquqi əsası**: Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 641-VQD və 652-VQD nömrəli qanunları ilə "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilmişdir.

## KREDİTLƏRİN ALINMASI

Mövcud reytinq: 190 ölkə arasında **122-ci yer**

Doing Business
THE WORLD BANK

# KREDİTLƏRİN ALINMASI

## MƏLUMAT TƏCHİZATÇILARI / MƏLUMAT İSTİFADƏÇİLƏRİ

MBNP-nin Mərkəzləşdirilmiş Kredit Reyestr Bazası

Büronun müraciəti əsasında ödənişsiz bir dəfə

**Məlumat təchizatçıları** (MÜQAVİLƏ ƏSASINDA):

- Banklar
- BOKT-lar
- Sığorta və təkrar sığortaçılar
- Lizinq və Faktorinq Şirkətləri
- Mobil operatorlar
- Kommunal xidmət operatorları
- Nisyə mal alqı-satqı subyektləri
- Digər subyektlər

### ÖZƏL KREDİT BÜROSU

- KREDİT TARİXÇƏSİ
- KREDİT HESABATLARI

**Məlumat istifadəçiləri** (ELEKTRON HÖKUMƏT PORTALI):

- Məhkəmələr
- İcra orqanları
- Notariuslar
- Ali və Konstitusiya Məhkəməsi
- Mərkəzi və yerli icra hakimiyyəti orqanları
- Maliyyə Bazarlarına Nəzarət Palatası (MBNP)
- Mərkəzi Bank
- Teleradio Şurası

Şəxslərin müraciəti əsasında ildə iki dəfə pulsuz olaraq kredit hesabatları əldə oluna bilər.

## AZƏRBAYCAN KREDİT BÜROSUNUN ƏSAS XÜSUSİYYƏTLƏRİ

- Özəl Kredit Büro 2005-ci ildən etibarən Dövlət reyestrində (MKR) toplanmış məlumatlar əsasında fəaliyyətə başladı;
- Dövlət orqanları məlumat bazalarında toplanmış neqativ məlumatları Kredit bürosu ilə paylaşacaqdır;
- Məlumatlar həm fiziki, həm də hüquqi şəxslər barəsində toplanılır;
- Büroda həm neqativ, həm də pozitiv məlumatlar toplanılır;
- Məlumat mübadiləsi üçün məbləğ məhdudiyyəti yoxdur;
- Kredit məlumatları 10 il müddətində saxlanılır və paylaşılır;
- Məlumatlar borcalanların razılığı ilə toplanılır və paylaşılır;
- Bütün aktiv və bağlanmış öhdəliklər əhatə edilir;
- Kredit tarixçəsi subyektlərinin kredit hesabatına çıxışı həm elektron formada, həm də kağız daşıyıcıda təmin olunur;
- Borcalanın razılığı ilə kredit hesabatının transsərhəd ötürülməsi nəzərdə tutulmuşdur.

**Hüquqi əsası**: “Kredit büroları haqqında” Qanun 28 oktyabr 2016-cı il tarixində Parlamentdə qəbul olunmuş, Azərbaycan Respublikasının Prezidentinin 07 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilərək qüvvəyə minmişdir.

# KREDİTLƏRİN ALINMASI

## AZƏRBAYCAN KREDİT BÜROSU – MÖVCUD VƏZİYYƏT

**01**

### BÜRONUN TƏSİS OLUNMASI

İlk özəl kredit bürosu 15 Yanvar 2018-ci ildə dövlət qeydiyyatına alındı. Təsisçilər tərəfindən 2,000,000 manat nizamnamə kapitalı ödəndi.

**02**

### BÜRO LİSENZİYA ALDI

31 yanvar 2018-ci il tarixində Büro ilk özəl kredit bürosu lisenziyasını aldı. 01 Fevral 2018-ci il tarixində Büronun Baş Direktoru təyin olundu. 09 fevral 2018-ci il tarixində Büronun açılış mərasimi keçirildi.

**03**

### İNFRASTRUKTURUN FORMALAŞDIRILMASI.

19 fevral 2018-ci ildə Büro Biznes Planı, Əməliyyat Planı, Strukturu, məlumat mübadiləsi Qaydaları və qiymət siyasətini təsdiq etmişdir.

**04**

### 77 KREDİT TƏŞKİLATI İLƏ MÜQAVİLƏLƏR İMZALANDI

Büro məlumat mübadiləsi üçün banklarla 30, qeyri-bank kredit təşkilatları ilə isə 47 müqavilə imzalandı.

**05**

### BÜRO FƏALİYYƏTƏ BAŞLADI

Mərkəzləşdirilmiş Kredit Reyestrinin məlumatları Büroya miqrasiya olundu.
**6 Mart 2018-ci il** tarixindən Büro sistemini işə saldı və kredit təşkilatları ilə real vaxt rejimində məlumat mübadiləsinə başladı.

**06**

### SIĞORTA VƏ KOMMUNAL XİDMƏT TƏŞKİLATLARI BÜROYA CƏLB OLUNDU

Büro 21 Sığorta şirkəti və 1 təkrar sığorta şirkəti ilə müqavilə imzaladı. Büro bir kommunal xidmət təşkilatı ilə məlumatların inteqrasiyasını yekunlaşdırdı. Digər iki kommunal şirkət və mobil operatorlarla yekunlaşdırma mərhələsindədir.

**07**

### KREDİT BÜROSUNUN SKORİNQ SİSTEMİ

DOING BUSINESS – İSLAHATIN NƏTİCƏSİ

### RİSKLƏRİN İDARƏ OLUNMASI

- Məlumat asimmetriyasının azaldılması;
- "Müştərini tanı" prinsipinin detallı tətbiq edilməsi;
- Skorinq və digər sistemlərin tətbiq edilməsi;
- Borcalanın qiymətləndirilməsi prosesi üzrə xərclərin azaldılması;
- Sahibkarlıq subyektlərinin risk profili məlumatlarına çıxışın olması.

### MALİYYƏYƏ ÇIXIŞ İMKANLARININ YAXŞILAŞMASI

- Risk profilinə əsasən diferensial yanaşma;
- Kreditlər üzrə maya dəyərinin azalması ilə faiz dərəcələrinin enməsi;
- Borcalanların maliyyə intizamının möhkəmlənməsi;
- Nüfuz təminatı ilə kreditlərin əlçatanlığı.

**Hüquqi əsası**: "Kredit büroları haqqında" Qanun 28 oktyabr 2016-cı il tarixində Parlamentdə qəbul olunmuş, Azərbaycan Respublikasının Prezidentinin 07 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilərək qüvvəyə minmişdir.

# KREDİTLƏRİN ALINMASI

## DAŞINAR ƏMLAKIN YÜKLÜLÜYÜ REYESTRİ

**DAŞINAR ƏMLAKIN YÜKLÜLÜYÜ REYESTRİ** - ödənişli əsasda, yalnız yüklülük əməliyyatlarını qeydə alaraq və onlayn qaydada 24/7 rejimində fəaliyyət göstərəcəkdir.

KREDİTOR

Məlumat daxil edilir

**DAŞINAR ƏMLAKIN YÜKLÜLÜYÜ REYESTRİ**

Sənədlər qeydə alınır

- Yüklülük haqqında bildiriş
- Yüklülüyə dəyişikliklər edilməsi haqqında bildiriş
- Yüklülüyə xitam vermə haqqında bildiriş
- Yüklülüyə etiraz etmə haqqında bildiriş

Axtarışların nəticələri barədə hesabat təqdim edir

### ƏSAS FUNKSİYALARI

- İlkin bildirişlər daxil etmək
- Bildirişlər əsasında reyestrdə qeydlər aparmaq
- Yüklülük predmeti barədə arayışlar vermək
- Reyestrdə düzəlişlər, əlavələr etmək və təminat hüququna xitam verilməsini qeydə almaq

### YÜKLÜLÜYÜN NÖVLƏRİ

**XÜSUSİ**

Girov, icarə, alqı-satqı, renta, faktorinq və s.

**DÖVLƏT VƏ BƏLƏDİYYƏ**

Vergi və gömrük borclarının alınması üçün icra sənədləri, cinayət məhkəmə icraatı zamanı daşınar əmlak üzərinə həbs qoyulması və s.

**Hüquqi əsası**: "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının 2017-ci il 2 may tarixli 667-VQ nömrəli Qanunu qəbul olunmuşdur.

# KREDİTLƏRİN ALINMASI

## DAŞINAR ƏMLAKIN YÜKLÜLÜYÜNÜN DÖVLƏT REYESTRİ ÜZRƏ MÖVCUD QANUNVERİCİLİK

| Alt-indikator | Əsaslandırma |
|---|---|
| Daşınar əmlak üzərində yüklülüyün yaranması, üçüncü şəxslər üçün yüklülük barədə məlumatların əldə olunmasının açıqlığı, daşınar əmlaka tutma yönəldilməsi ilə bağlı vahid yanaşmanı əks etdirən qanunvericilik mövcuddur. | Daşınar Əmlakın Yüklülüyü haqqında Azərbaycan Respublikasının Qanununda 4-cü maddə. |
| Təminatın spesifik xüsusiyyətlərinin təsvirini tələb etmədən, qanun daşınar əmlakın hər hansı kateqoriyasının yüklülük verənin sahibliyində qalmasını biznesə icazə verir. | Daşınar Əmlakın Yüklülüyü haqqında Azərbaycan Respublikasının Qanununda 3.5 və 22-ci maddələr. |
| Təminatın spesifik xüsusiyyətlərinin təsvirini tələb etmədən, qanun bütün daşınar əmlakının yüklülük verənin sahibliyində qalmasını biznesə icazə verir. | Daşınar Əmlakın Yüklülüyü haqqında Azərbaycan Respublikasının Qanununda 3.5 və 22-ci maddələr. |
| Yüklülük hüququ gələcəkdə və ya sonradan əldə edilmiş aktivlərə tətbiq edilir və yüklülük məhsula, habelə daşınar əmlakın əvəzlənməsi halında yeni daşınar əmlaka avtomatik olaraq şamil olunur. | Daşınar Əmlakın Yüklülüyü haqqında Azərbaycan Respublikasının Qanununda 3.1, 3.3, 10, 22-ci maddələr. |
| Yüklülük haqqında müqavilələrdə bütün növ borc və öhdəliklərin ümumi formada təsvirinə icazə verilir; bütün növ borclar və öhdəliklər tərəflər arasında təmin oluna bilər; və yüklülük müqaviləsində əsas öhdəliyin maksimal ölçüsü göstərilə bilər. | Daşınar Əmlakın Yüklülüyü haqqında Azərbaycan Respublikasının Qanununda 3.1, 3.5, 4.3.15, 10, 22-ci maddələr |
| Fiziki və hüquqi şəxslər üçün bütün ölkəni və bütün aktivləri əhatə edən, habelə yüklülük verənin (borclunun) identifikasiyası ilə əlaqələndirilən onlayn reyestr yaradılmışdır və fəaliyyət göstərir. | Daşınar Əmlakın Yüklülüyü haqqında Azərbaycan Respublikasının Qanununda 20, 20.4 və 26-cı maddələr. |



**Hüquqi əsası**: "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının 2017-ci il 2 may tarixli 667-VQ nömrəli Qanunu qəbul olunmuşdur.

# KREDİTLƏRİN ALINMASI

## DAŞINAR ƏMLAKIN YÜKLÜLÜYÜNÜN DÖVLƏT REYESTRİ ÜZRƏ MÖVCUD QANUNVERİCİLİK

| Alt-indikator | Əsaslandırma |
|---|---|
| Reyestr bildiriş əsasında yüklülüyü qeydə alır və yüklülüyün bütün növlərini əhatə edir. | Daşınar Əmlakın Yüklülüyü haqqında Azərbaycan Respublikasının Qanununda 20.1, 20.4, 20.6, 20.10-ci maddələr |
| Reyestr maraqlı üçüncü şəxs tərəfindən yeni yüklülüyün qeydə alınmasına, mövcud yüklülüklərdə dəyişiklik edilməsinə və onlara xitam verilməsinə, habelə axtarış aparılmasına onlayn formada imkan verir. | Daşınar Əmlakın Yüklülüyü haqqında Azərbaycan Respublikasının Qanununda 1.0.8, 1.0.7, 20.1, 20.4, 20.10-ci maddələr |
| Borclu ödəmə qabiliyyətini müflisləşmə prosesindən kənarda itirdikdə, təminatlı kreditorların tələbləri ilk növbədə (məsələn, vergi tələbləri və işçi tələblərindən əvvəl) ödənilir. | |
| Biznes ləğv edildikdə, təminatlı kreditorların tələbləri ilk növbədə (məsələn, vergi tələbləri və işçi tələblərindən əvvəl) ödənilir. | |
| Borclu məhkəmə nəzarəti altında yenidən təşkil prosedurana daxil olduqda, borclulara münasibətdə qəbul edilmiş qərarların icrasının dayandırılması təminatlı kreditorlara şamil edilir. Qanun müəyyən əsaslar və müddət müəyyən etməklə təminatlı kreditorları belə dayandırmadan azad edir | Müflisləşmə və İflas haqqında Azərbaycan Respublikasının Qanunu |
| Qanun yüklülük müqaviləsinin bağlanması zamanı daşınar əmlaka tutma yönəldilməsinin məhkəmədənkənar qaydasına icazə verir, yüklülük sahibinin (kreditorun) daşınar əmlakı dövlət və ya özəl hərracda satmasına, habelə borc əvəzində daşınar əmlakı mülkiyyətinə götürməsinə icazə verir. | Daşınar Əmlakın Yüklülüyü haqqında Azərbaycan Respublikasının Qanununda 13, 16 və 19-cu maddələr |



DOING BUSINESS — İSLAHATIN NƏTİCƏSİ

- 2017-ci il 2 may tarixində "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının qanunu qəbul olunmuşdur;
- Müvafiq qaydalar Ədliyyə Nazirliyində qeydiyyatdan keçərək qüvvəyə minmişdir;
- Daşınar əmlakın yüklülüyünün dövlət reyestri 15 mart 2018-ci ildən fəaliyyət göstərir.

**Hüquqi əsası**: "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının 2017-ci il 2 may tarixli 667-VQ nömrəli Qanunu qəbul olunmuşdur.

## KİÇİK İNVESTORLARIN MARAQLARININ QORUNMASI

Mövcud reytinq: 190 ölkə arasında **10-cu yer**

Doing Business

THE WORLD BANK

# KİÇİK İNVESTORLARIN MARAQLARININ QORUNMASI

## MÖVCUD QANUNVERİCİLİKDƏ KİÇİK İNVESTORLARIN TƏSBİT OLUNMUŞ HÜQUQLARI




DOING BUSINESS — İSLAHATIN NƏTİCƏSİ

- İcraçı direktor səhmdarların təmin olunmuş iddialarına görə cərimələnə, həbs edilə yaxud vəzifəsindən kənarlaşdırıla bilər.
- Səhmdarın müvəffəqiyyətli iddiası nəticəsində məhkəmə əməliyyatı (əqdi) ləğv edə bilər.
- Məhdud məsuliyyətli cəmiyyətin aktivlərinin 51 faizinin satıldığı zaman cəmiyyətin iştirakçılarının razılığı tələb olunur.
- Səhmdar cəmiyyətinin iştirakçısı payını satdığı halda ilk öncə mövcud iştirakçılara təklif etməlidir.
- Səhmdar cəmiyyətinin 50 faiz iştirak payını alan potensial alıcı tərəfindən digər səhmdarlara təklif edilməlidir.
- Məhdud məsuliyyətli cəmiyyətin mənfəəti qanunla müəyyən olunmuş vaxt aralığında bölüşdürülməlidir.
- İştirak payının 5 faizini təşkil edən səhmdar cəmiyyətinin iştirakçıları gündəliyə yeni müzakirə mövzularını əlavə edə bilərlər.

# KİÇİK İNVESTORLARIN MARAQLARININ QORUNMASI

## "KİÇİK İNVESTORLARIN HÜQUQLARININ MÜDAFİƏSİ"NİN GÜCLƏNDİRİLMƏSİ MƏQSƏDİ İLƏ QANUNVERİCİLİYƏ EDİLMƏSİ PLANLAŞDIRILAN ƏLAVƏ DƏYİŞİKLİKLƏR

| Yeni təsbit olunacaq hüquqlar | Qanunvericilikdə nəzərdə tutulan dəyişikliklər |
|---|---|
| **"DİREKTORLARIN MƏSULİYYƏTİ" İNDEKSİ** | |
| Səhmdarlar həyata keçirilən əməliyyatlar nəticəsində alıcıya vurulan zərərə görə marağı olan direktoru məsuliyyətə cəlb edə bilərlər. | ▪ Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49.3-cü maddəsində dəyişiklik edilərək, yeni redaksiya ilə verilməsinin təmin edilməsi:<br>Hüquqi şəxsin iştirakçılarının nizamnamə kapitalında ən azı 5 faiz paya (səhmə) malik olan iştirakçısının (iştirakçılarının) tələbi ilə o, vəzifələrini pozduğu halda, pozuntu nəticəsində hüquqi şəxsə dəymiş zərərin əvəzini ödəməlidirlər. |
| Səhmdarlar həyata keçirilən əməliyyatlar nəticəsində alıcıya vurulan zərərə görə digər direktorları məsuliyyətə cəlb edə bilərlər. | ▪ Hüquqi şəxs adından çıxış edən və ya idarəetmə orqanlarında hüquqi şəxsi təmsil edən şəxs, hüquqi şəxsə və ya səhmdara dəyən zərərə görə, məsələn, hüquqi şəxs zərərlə işlədikdə, hüquqi şəxsin idarəetmə orqanlarının üzvlərinə qeyri-mütənasib bonuslar ödənildikdə, hüquqi şəxsin əmlakı bazar şərtlərindən əhəmiyyətli dərəcədə az dəyərlə özgəninkiləşdirildikdə və ya istifadə edildikdə və bu kimi digər hallarda məsuliyyətə cəlb edilməsini əks etdirən 49.4, eyni zamanda, həmin zərərə görə tutduğu vəzifədən kənarlaşdırıla bilinməsini və ya həmin şəxsin inzibati və cinayət məsuliyyətinə cəlb edilməsi halında onu, hüquqi şəxsə dəymiş zərərin ödənilməsi vəzifəsindən azad etməməsini əks etdirən 49.5 nömrəli yeni maddələrin əlavə edilməsi. Əlavə olaraq, qeyd olunan hallar baş verdikdə hüquqi şəxsin nizamnamə kapitalında ən azı 5 faiz paya (səhmə) malik olan iştirakçısı hüquqi şəxs adından çıxış edən və ya onu təmsil edən şəxsdən hüquqi şəxsdə olan və həmin hallarla bağlı olan bütün sənədlərə və ya məlumatlara baxış keçirmək məqsədi ilə həmin sənədləri tələb edə bilmək hüququnu müəyyən edən 49.6 nömrəli maddənin də əlavə edilməsi. |
| İcraçı direktor səhmdarların təmin olunmuş iddialarına görə cərimələnə, həbs edilə, yaxud vəzifəsindən kənarlaşdırıla bilər. | |
| Səhmdarın müvəffəqiyyətli iddiası nəticəsində məhkəmə əməliyyatını (əqdi) ləğv edə bilərlər. | Azərbaycan Respublikası Mülki Məcəlləsinin 339.6-cı maddəsinə aşağıdakı yeni cümlənin əlavə edilməsi:<br>"339.6. Bu Məcəllənin 339.1 – 339.4-cü maddələrində göstərilən əsaslar üzrə əqd zərərçəkənin iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər". |
| Menecerlərə verilən ödənişlər açıqlanmalıdır. | Azərbaycan Respublikası Mülki Məcəlləsinin 99.2-ci maddəsində 99.2.8-ci bəndinə əlavənin edilməsi və yeni redaksiya ilə aşağıdakı kimi verilməsi təmin edilir:<br>99.2. Açıq səhmdar cəmiyyəti illik hesabatını və mühasibat balansını, habelə aşağıdakı məlumatları hamının tanış olması üçün hər il dərc etməyə borcludur:<br>99.2.8. idarəetmə orqanlarının "hər bir üzvünə" verilən ödənişlər. |





# KİÇİK İNVESTORLARIN MARAQLARININ QORUNMASI

## "KİÇİK İNVESTORLARIN HÜQUQLARININ MÜDAFİƏSİ"NİN GÜCLƏNDİRİLMƏSİ MƏQSƏDİ İLƏ QANUNVERİCİLİYƏ EDİLMƏSİ PLANLAŞDIRILAN ƏLAVƏ DƏYİŞİKLİKLƏR

| Yeni təsbit olunacaq hüquqlar | Qanunvericilikdə nəzərdə tutulan dəyişikliklər |
|---|---|
| Səhmdar cəmiyyətinin iştirakçısı payını satdığı halda ilk öncə mövcud iştirakçılara təklif etməlidir. | Azərbaycan Respublikası Mülki Məcəlləsinin 93.3-cü maddəsinə aşağıdakı cümlənin əlavə edilməsi: "Cəmiyyətin iştirakçısı öz payını (onun bir hissəsini) özgəninkiləşdirmək istədikdə həmin payın (onun bir hissəsinin) satın alınmasını ilkin olaraq cəmiyyətin digər iştirakçılarına təklif etməlidir". |
| Səhmdar cəmiyyətinin 50 faiz iştirak payını alan potensial alıcı tərəfindən digər səhmdarlara tender elan etməlidir. | Azərbaycan Respublikası Mülki Məcəlləsinin 104.2-ci maddəsi yeni redaksiyada verilsin: cəmiyyətin səhminin 50% və daha çox hissəsini satın almaq istəyən şəxs (alıcı) "bütün" səhmdarlara müvafiq təklif təqdim etməlidir. |
| Cəmiyyətin direktorlar şurası yalnız direktorlar şurasının üzvlərindən ibarət audit komitəsini ehtiva etməlidir. | ▪ Azərbaycan Respublikası Mülki Məcəlləsinin 91-4.3-cü maddəsinin aşağıdakı kimi yeni redaksiya ilə verilməsi:<br>"91-4.3. Cəmiyyətin icra orqanının üzvləri və (və ya) cəmiyyətin iştirakçıları audit komitəsinin üzvü ola bilməzlər. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvləri audit komitəsinin üzvü ola bilərlər."<br>▪ Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-7.2-ci maddəsində aşağıdakı məzmunda ikinci cümlənin əlavə edilməsi:<br>"Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvləri üçün sayı və onlara dair tələblər qanunla da müəyyən edilə bilər."<br>▪ Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-12.3-cü maddəsinin aşağıdakı kimi yeni redaksiya ilə verilməsi:<br>Cəmiyyətin icra orqanının üzvləri və (və ya) cəmiyyətin iştirakçıları audit komitəsinin üzvü ola bilməzlər. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvləri audit komitəsinin üzvü ola bilərlər." |



## VERGİLƏRİN ÖDƏNİLMƏSİ

Mövcud reytinq: 190 ölkə arasında **35-ci yer**

Doing Business

THE WORLD BANK

## ƏDV-NİN GERİ QAYTARILMASI

əvvəl: 45 gün

indi: 20 gün

## KAMERAL YOXLAMA

30 gün

DOING BUSINESS

İSLAHATIN NƏTİCƏSİ

- Bir sıra xarici dövlətlərin vergi qanunvericiliyində vergi risklərinin azaldılmasına xidmət edən metodlardan biri kimi "Vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsi" (Advance Tax Ruling) metodu istifadə edilir. Bu məqsədlə artıq Vergi Məcəlləsində xüsusi maddə əlavə edilmişdir;
- Həmçinin könüllü vergi açıqlaması – səyyar vergi yoxlaması başa çatdıqdan sonra yoxlama zamanı aşkar edilməyən və vergi öhdəliyinin yaranmasına səbəb olan halların vergi ödəyiciləri tərəfindən vergi orqanlarına könüllü olaraq bəyan edilməsi sisteminin tətbiqi Vergi Məcəlləsində öz əksini tapmışdır;
- Artıq ödənilmiş ƏDV-nin geri qaytarılması müddəti 45 gündən 20 günə endirilmişdir;
- Kameral vergi yoxlamaları vergi bəyannaməsi vergi orqanına təqdim edildiyi vaxtdan 30 iş günü müddətində keçirilir;
- Əmək haqlarına tətbiq edilən vergi güzəştinin şamil olunduğu vergi ödəyicilərinin əhatə dairəsinin genişləndirilməsi məqsədilə Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən əsas iş yerində aylıq gəliri 2.500 manatadək və illik gəliri 30.000 manatadək olan fiziki şəxslərin gəlirlərinin müvafiq olaraq ölkə üzrə yaşayış minimumunun 1 və 12 mislinədək olan hissəsinə gəlir vergisindən vergi güzəştinin tətbiqin başlanılmışdır;
- Vergi ödəyicisinin siyahıya alınmış əmlakı icra məmurunun sifarişinə əsasən elektron hərrac vasitəsi ilə də satılır;
- Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı elektron qaimə - fakturalar verilir.

## XARİCİ TİCARƏTİN APARILMASI

Mövcud reytinq: 190 ölkə arasında **83-cü yer**

Doing Business

THE WORLD BANK

# XARİCİ TİCARƏTİN APARILMASI

## "YAŞIL DƏHLİZ" BURAXILIŞ SİSTEMİ




- Tələb olunan sənədlərin sayı azaldılmışdır;
- Vaxta qənaət olunur;
- Xərclər azaldılmışdır.



**"YAŞIL DƏHLİZ" BURAXILIŞ SİSTEMİ** - malların və nəqliyyat vasitələrinin gömrük sərhəd buraxılış məntəqələrindən fiziki baxış olmadan birbaşa olaraq keçməsi.







- Sərhəd buraxılış məntəqələrində yarana biləcək tıxaclar aradan qaldırılmışdır;
- Yük əməliyyatları sahibkarın fəaliyyət göstərdiyi yerdə həyata keçirilir;
- Gömrük nəzarətinin səmərəliliyi artırılmışdır;
- Əlavə yoxlamalar aradan qaldırılmışdır.

**Hüquqi əsası**: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda dəyişikliklər;
"Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanı;
"Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanı.

# XARİCİ TİCARƏTİN APARILMASI

## ELEKTRON GÖMRÜK və ƏQLİ MÜLKİYYƏT XİDMƏTLƏRİNİN TƏTBİQİ

Əqli mülkiyyət hüquqlarının obyektləri olan malların reyestrinin aparılması təkmilləşdirilmişdir;

Hüquq sahiblərinin maarifləndirilməsi istiqamətində seminarlar təşkil edilir və onların hüquqlarının qorunması üzrə reyestr aparılır;

Müxtəlif şirkətlərə məxsus 29 adda əmtəə nişanı Dövlət Gömrük Komitəsində reyestrə alınmışdır.




DOING BUSINESS

İSLAHATIN NƏTİCƏSİ

- Vaxt itkisi aradan qaldırılmışdır;
- Risklər azaldılmışdır;
- Məmur-vətəndaş təması minimuma endirilmişdir;
- Ticarət-təchizat zəncirinin təhlükəsizliyi təmin edilmişdir;
- Əlavə xərclər azaldılmışdır.

**Hüquqi əsası**: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda dəyişikliklər;
"Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanı;
"Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanı.

# XARİCİ TİCARƏTİN APARILMASI

## VAHİD İXRAC ƏRİZƏSİ

**"Vahid İxrac Ərizəsi"** öz məhsullarını ixrac etmək istəyən şəxslərə bir ərizə vasitəsilə bir neçə icazə və lisenziyaları əldə etməyə şərait yaradır. Məlumatın bir dəfə daxil olunması şərti ilə ixracatçı Mənşə, Keyfiyyət, Fitosanitar və Sərbəst Satış sertifikatlarını əldə edə bilər və gömrük bəyannaməsi ilə ixrac təşviqi ərizəsinin doldurulmasını “Azexport.az” həvalə edə bilər.

**https://dth.azexport.az/**

1. "Vahid İxrac Ərizəsi" üçün vətəndaş Rəqəmsal Ticarət Qovşağına daxil olur.
2. "Vahid İxrac Ərizəsi" bölməsində bütün zəruri məlumatları doldurur.
3. Sistem avtomatik olaraq ixrac üçün tələb olunan sənədlərin siyahısını təqdim edir.
4. İxracatçı siyahıdan ona lazım olan sənədləri seçir.
5. Ərizə ilə davam etmək üçün "İrəli" düyməsinə basır.
6. Sənədlərin əldə edilməsinin məntiqi ardıcıllığına uyğun olaraq şəxsi kabinətə daxil olur və ixrac paketi tamamlanır.

VAHİD İXRAC ƏRİZƏSİ

DOING BUSINESS – İSLAHATIN NƏTİCƏSİ

- İxrac sənədlərinin əldə olunması üçün tələb olunan vaxtı qısaldır. Hər ərizənin doldurulmasına təxminə 5 dəqiqə vaxt sərf edilir.
- Xidmət tamamilə ödənişsizdir. İxrac paketinin formalaşması üçün çəkilən xərclər minimuma endirilmişdir.

**Hüquqi əsası**: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı ilə təsdiq edilmiş “Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları“nda dəyişikliklər;
“Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün “Yaşıl dəhliz” və digər buraxılış sistemlərindən istifadə Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanı;
“Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında“ Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanı.

## MÜQAVİLƏLƏRİN İCRASININ TƏMİN EDİLMƏSİ

Mövcud reytinq: 190 ölkə arasında **38-ci yer**

Doing Business

THE WORLD BANK

# MÜQAVİLƏLƏRİN İCRASININ TƏMİN EDİLMƏSİ

**Avtomatlaşdırılmış «ELEKTRON ƏMR İCRAATI» sisteminin tətbiqinin nəticəsi**

7 gün 24 saat ərzində sənədlərin elektron təqdim edilməsi və tərəflər arasında kağızsız sənəd mübadiləsi imkanı

Vətəndaşların və sahibkarların məhkəmə sisteminə inamı artır.

Əhəmiyyətli dərəcədə az səviyyədə məhkəmə əmrlərinə etiraz olunması

Əmrlərin elektron icraya yönəldilməsi hesabına icra prosesinin sürətlənməsi

DOING BUSINESS — İSLAHATIN NƏTİCƏSİ

- Vahid Məhkəmə Portalı (www.mahkamalar.gov.az);
- «Şəxsi kabinet» (fiziki və hüquqi şəxslər üçün məhkəmə işləri ilə bağlı əlaqə imkanı);
- Məhkəmə İşlərinin Elektron İdarəetmə Sistemi («Elektron məhkəmə»);
- «Elektron əmr icraatı» sistemi;
- İcra İşlərinin Elektron İdarəetmə Sistemi («Elektron icra»);
- «Nəzarət Pəncərəsi» (məhkəmə fəaliyyəti ilə bağlı müddətlər və s. barədə məlumatlar);
- Məhkəmə proseslərinin Elektron Protokollaşdırma Sistemi (Az-FEMİDA);
- Elektron Ödəniş Sistemi (məhkəmə fəaliyyəti ilə bağlı bütün dövlət rüsumlarının elektron qaydada ödənilməsi).

**Hüquqi əsası**: "Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 330-VQD nömrəli Qanunu qəbul edilmişdir;
Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı qəbul olunmuşdur.

## ELEKTRON ƏRİZƏNİN TƏQDİM EDİLMƏSİ VƏ BAXILMASI




**Hüquqi əsası**: "Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 330-VQD nömrəli Qanunu qəbul edilmişdir;
Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı qəbul olunmuşdur.

# MÜQAVİLƏLƏRİN İCRASININ TƏMİN EDİLMƏSİ

## VƏTƏNDAŞLARA VƏ SAHİBKARLARA "ELEKTRON ŞƏXSİ KABİNET" VASİTƏSİ İLƏ VERİLƏN İMKANLAR




**Proses iştirakçıları «Şəxsi kabinet» vasitəsilə məhkəməyə gəlmədən (elektron imzadan istifadə edərək):**

- Electron müraciət və şikayətlərin verilməsi;
- Dövlət rüsumunu elektron qaydada ödəmək;
- Məhkəmə işinin baxılması vaxtı barədə vaxtında məlumat əldə etmək;
- Məhkəmə prosesinin baxışının nəticəsi barədə məlumatlandırılmaq;
- İstənilən instansiya məhkəməsində olan işlərlə tanış olmaq;
- İddia ərizələrini və digər sənədləri (bildirişlər, məhkəmə aktları və s.) elektron qaydada təqdim etmək və almaq;
- Məhkəmə aktlarının icrası vəziyyəti ilə tanış olmaq;
- Məhkəmə baxışı ilə bağlı bütün yeniliklər barədə sms və e-mail vasitəsilə məlumatlandırılmaq.

- 2013-2017- ci illər üzrə "AZEMİS" sistemi 20 məhkəmə və 10 icra qurumunda tətbiq olunmuşdur;
- "Elektron Məhkəmə" informasiya sistemi vasitəsi ilə baxılmalı olan məhkəmə iş növləri üzrə qeydiyyat daha daqiq aparılaraq hakimlər arasında bölgü həyata keçirilir;
- 700-dən çox sənəd şablon formasında hazırlanmış, bununla da işçi üzərindəki iş yükü azaldılmış və yarana biləcək səhvlərin qarşısı alınmışdır;
- Elektron Məhkəmə informasiya sistemi üzrə Dünya Bankının tərəfdaşlıq mükafatları alınmışdır;
- 2017-ci il 27 oktyabr tarixində "Məhkəmənin Nəbzi – İdarəetmədə İnqilab" adlı layihə Avropa Şurası tərəfindən "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsinin "Xüsusi Diqqətəlayiq Layihəsi" mükafatı ilə təltif olunmuşdur.

**Hüquqi əsası**: "Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 330-VQD nömrəli Qanunu qəbul edilmişdir;
Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı qəbul olunmuşdur.

## MÜƏSSİSƏNİN BAĞLANMASI

Mövcud reytinq: 190 ölkə arasında **47-ci yer**

Doing Business
THE WORLD BANK

# MÜƏSSİSƏNİN BAĞLANMASI

## "MÜƏSSİSƏNİN BAĞLANMASI" İNDİKATORU ÜZRƏ QANUNVERİCİLİKDƏ PLANLAŞDIRILAN İSLAHATLAR

### ƏSASLANDIRMA

Müflisləşmə və İflas haqqında Azərbaycan Respublikası Qanunun 55-ci maddəsinə aşağıdakı yeni bəndin əlavə olunması:
"d) borclunun iflas prosesinə başlanması məqamından əvvəlki 6 ay ərzində bir kreditoru digər kreditorlara münasibətdə ödənişlərin növbəliyində üstün vəziyyətə gətirəcək əqdlərin bağlanması".



Müflisləşmə və iflas haqqında AR qanunun 1-ci maddəsi üzrə "Kreditorlar qrupu"nun müəyyən tələblər üzrə formalaşdırılmasını əks etdirən, 3-cü maddəsi istiqamətində isə Sağlamlaşdırma üzrə məhkəməyə verilən ərizəyə, eləcə də, iddia ərizəsinə daxil edilməli olan məlumatlar və sənədləri nəzərdə tutan, eyni zamanda 41-1-ci maddənin əlavə edilməsi ilə, "Sağlamlaşdırma planı və onun təsdiq edilməsi qaydaları"nı müəyyənləşdirən və s. bu kimi dəyişikliklər və əlavələrin edilməsi.

Həmçinin, debitor şirkətin yenidən təşkil edilməsi planı ilə əlaqədar səsvermə üçün kreditorların diferensial qruplara bölünməsi və hər qrupun ayrı-ayrılıqda səs verməsi ilə bağlı aşağıdakı maddənin əlavə edilməsi: "41-1. 5. Sağlamlaşdırma planının təsdiq edilməsi ilə əlaqədar kreditorlar yığıncağında bu Qanunun 1-ci maddəsinin 6-cı hissəsinə əsasən eyni tələblər üzrə formalaşdırılmış kreditorlar qrupu iştirak etməlidir. Keçirilən səsvermədə kreditorlar qrupu öz üzvləri sırasından seçilmiş bir nümayəndə ilə təmsil olunurlar. Hər bir kreditorlar qrupu səsvermədə bərabər hüquqa malikdirlər. Kreditorlar yığıncağının qərarı sadə səs çoxluğu ilə qəbul edilir. Hər qrupun bir üzvü - 1 səs hesab edilir. Səslər bərabər olduqda ümumi yığıncağın sədrinin səsi həlledici hesab olunur".

Müflisləşmə və iflas haqqında Azərbaycan Respublikası Qanunun 24-1-ci maddəsi üzrə dəyişikliklər edildikdən sonra, yeni redaksiya ilə verilməsinin təmin edilməsi:
Borclunun əsas vəsaitlərinin aktivlərinin satılması əmlak inzibatçısı tərəfindən hazırlanan və bu Qanunun 48-ci maddəsinin 5-ci hissəsində müəyyən edilmiş qaydada kreditorların yığıncağında təsdiq edilən satış planına uyğun olaraq açıq hərrac yolu ilə və ya bu Qanunun 26-cı maddəsində müəyyən edilmiş hallar olduqda digər üsullarla həyata keçirilir.

"Kreditorların yığıncağı" adlı maddənin 5-ci bəndi üzrə, Kreditorlar yığıncağında hər hansı məsələyə dair qəbul olunmuş qərarın hüquqi cəhətdən etibarlığının yalnız aşağıdakıların səsverməsi ilə müəyyən edilməsi:
a) yığıncaqda iştirak edən və ya təmsil olunan kreditorların əksəriyyəti;
b) yığıncaqda iştirak edən və ya təmsil olunan kreditorların təmin edilməmiş bütün məlum borcların məbləğinin çox hissəsini təmsil edən əksəriyyəti.

DOING BUSINESS — İSLAHATIN NƏTİCƏSİ

İflas haqqında qanunvericilikdə imtiyazlı əqdlərin ləğv edilməsinin təsbit olunması.

Müflisləşmə elan edildikdən sonra debitor şirkətin yenidən təşkil edilməsi planı ilə əlaqədar səsvermə üçün kreditorların diferensial qruplara bölünməsi və hər qrupun ayrı-ayrılıqda səs verməsinin təsbit olunması.

Müflisləşmə elan edildikdən sonra debitor şirkətin böyük həcmdə aktivlərinin satışı zamanı kreditorlardan razılıq alınması.

/iqtisadiislahat

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

Tel.: (+ 99412) 521 33 18
info@ereforms.org
Bakı,  Yasamal rayonu, Landau küç. 16
AZ 1073